# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA!

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 17-18 (7611-7612) * 13 dekabr 2022-ci il * İctimai-siyasi qəzet * Qiyməti 50 qəpik


## Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi anılıb







Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini yad etmək üçün Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, RİH başçısı aparatının əməkdaşları, şəhid ailələrinin üzvləri, müharibə əlilləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri Tovuz şəhərində Ulu Öndərin adını daşıyan mədəniyyət və istirahət parkında ucaldılmış Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Ulu Öndərin əziz xatirəsini yad edən tədbir iştirakçıları müasir və müstəqil Azərbaycan Respublikasının banisi və qurucusu Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, ehtiramlarını göstəriblər.

*"Tovuz"*

## Heydər Əliyevin anım günü ərəfəsində məktəblilər Ulu Öndərin adını daşıyan mərkəzi ziyarət ediblər





Müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Anım günü ərəfəsində məktəb şagirdlərinin Heydər Əliyev Mərkəzinə ekskursiyası keçirilib.

Heydər Əliyev Mərkəzinə gələn şagirdlər Dahi Liderimizin fəaliyyətini əks etdirən kitab və jurnalların sərgisi ilə tanış olublar. Şagirdlərə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlar əsasında geniş, dolğun məlumat verilib.

Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranması və inkişafında g[st'rdiyi əvəzsiz xidmətlərdən, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsindəki rolundan bəhs edilib.

*"Tovuz"*

# RİH başçısı Yuxarı Öysüzlü kəndində səyyar qəbul-görüş keçirib



Tovuz rayonu Yuxarı Öysüzlü kəndində rayon İcra Hakimiyyəti başçısının rəhbərliyi, idarə, təşkilat və müəssisə rəhbərlərinin iştirakı ilə səyyar qəbul-görüş keçirilib.

RİH başçısı Məmməd Məmmədov çıxış edərək 44 günlük Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan qələbənin tarixi əhəmiyyətindən bəhs etmiş, qələbədən sonra Qarabağ bölgəsində görülən bərpa-quuculuq işlərini və rayonumuzda həyata keçirilən infrastruktur layihələrini diqqətə çatdırmışdır.

Daha sonra Yuxarı Öysüzlü kəndinin sakinlərinin problemləri və onları narahat edən məsələlər dinlənilmişdir. Bəzi məsələlər yerində həllini tapmış, digərləri mərhələli həlli üçün qeydiyyata alınmış və nəzarətə götürülmüşdür.

Kənd sakinləri keçirilən səyyar qəbulların yerlərdə vəziyyətin öyrənilməsi üçün vacib olduğunu bildirmiş, ölkə rəhbərliyinə təşəkkürlərini ifadə etmişlər.



# Yusif Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbinin 100 illik yubileyi qeyd olunub



***Tovuz rayon Yusif Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbinin yaradılmasının 100 illik yubileyi ilə əlaqədar məktəbin akt zalında tədbir keçirilib. Tədbirdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, millət vəkilləri Qənirə Paşayeva, Arzu Nağıyev, Rauf Əliyev, Müşfiq Məmmədli, Sabir Hacıyev, Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı, professor Mayıl Əsgərov, Elm və Təhsil Nazirliyinin əməkdaşları, məktəbin məzunları, müəllimlər və şagirdlər iştirak etmişlər.***

Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında ucaldılmış abidəsi ziyarət olunmuş, önünə gül dəstələri qoyulmuşdur.

Sonra qonaqlar məktəbdə şagirdlərin əl işlərindən ibarət sərgiyə baxış keçirmiş, idman zalında yaradılan şəraitlə tanış olmuş, azyaşlı idmançılarla görüşmüş onlara gələcək həyatlarında uğurlar arzulamışlar.

Məktəbin akt zalında keçirilən tədbir Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra açıq elan olunmuşdur.

Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək 100 illik yubiley münasibətilə məktəbin kollektivini təbrik etmiş, Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında görülən işlərdən və əldə olunan nailiyyətlərdən, həmçinin təhsilin inkişafı sahəsində həyata keçirilən dövlət siyasətindən danışmış, Tovuz rayonunda təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində görülən işlərdən və rayonda təhsilin inkişafı sahəsində qarşıda duran vəzifələri diqqətə çatdırmışdır.



Daha sonra çıxış edən millət vəkilləri Qənirə Paşayeva, Arzu Nağıyev, Rauf Əliyev, Müşfiq Məmmədli, Sabir Hacıyev, professor Mayıl Əsgərov, məktəbin direktoru Nüsrət Quliyev və digərləri məktəbin yaranma tarixindən və bu günə qədər keçdiyi inkişaf yolundan bəhs etmişlər. Ölkə rəhbəri tərəfindən həyata keçirilən təhsil strategiyasının uğurlarından söz açaraq məktəbdə yaradılmış müasir standartlara cavab verən şəraitə görə Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini ifadə etmişlər.

Məktəbin 100 illik yubileyinə həsr olunmuş videoçarx və xarici ölkələrdə yaşayan məzunların təbrikləri tədbir iştirakçılarına nümayiş etdirilmişdir.

Tədbir əsasən Y.Sadıqov adına Bozalqanlı kənd tam orta məktəbinin məzunları olan rayonun mədəniyyət və incəsənət nümayəndələrinin konsert proqramı ilə davam etmişdir.



# "Azərbaycanın özü qədər əbədi" mövzusunda tədbir keçirilib



Tovuz rayon Heydər Əliyev Mərkəzinin və Tovuz rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Azərbaycanın özü qədər əbədi" mövzusunda tədbir təşkil edilib.

İlk öncə iştirakçılar Ümummilli Lider Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan MKS-nin direktoru Güldərən İbrahimova Ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı müstəsna xidmətlərindən, Azərbaycan dövlət müstəqilliyinin, suverenliyinin qorunub saxlanılmasından, respublikamızda bütün sahələrin inkişaf etdirilməsində misilsiz fəaliyyətindən bəhs edib.

Sonra Heydər Əliyev Mərkəzinin əməkdaşı Nərgiz Sabirli Ulu Öndərin həyat və fəaliyyəti haqqında geniş məruzə ilə çıxış edib. Tədbir iştirakçıları Ulu öndər Heydər Əliyevə həsr olunmuş "Şəxsiyyət" filminə tamaşa edib və Mərkəzin foyesində Tovuz rayon MKS-nin təşkil etdiyi Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən kitab sərgisinə baxış keçiriblər.

Sonda tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin həyat və siyasi fəaliyyətinə həsr olunmuş Mərkəzin muzey ekspozisiyasında yerləşən fotoşəkillərlə tanış olublar.

*"Tovuz"*



# Gənclər Təşkilatlarının V Konqresi keçirilib






***Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Azərbaycan Respublikası Gənclər Fondunun və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) birgə təşkilatçılığı ilə 8-10 dekabr 2022-ci il tarixlərində Gənclər Paytaxtı Tovuz şəhərində 100 nəfər gənclər təşkilatı rəhbərlərinin iştirakı ilə "Gənclər Təşkilatlarının V Konqresi" keçirilib.***

Konqresin əsas məqsədi gənclər təşkilatlarının yeni tərəfdaşlıq əlaqələri qurmalarına dəstək olmaq, gənclərlə iş və gənclər siyasəti ilə bağlı aktual mövzular haqqında fikir mübadiləsi aparmaq və gənclər təşkilatlarının idarəedilməsi sahəsində yeni mexanizmlərin yaradılmasını təmin etməkdir.

Konqres ənənəvi olaraq NAYORA tərəfindən həyata keçirilən, gənclər təşkilatlarının bir araya gətirilməsi, onların problem və təkliflərinin dinlənilməsi, yeni tərəfdaşlıqların qurulması, birlikdə bir çox innovativ layihə və fəaliyyətlərin təşkili, həmçinin təşkilatlar və dövlət qurumları ilə birgə gənclər siyasətinin müzakirə edilməsi kimi önəmli mövzuları özündə cəmləşdirir.

Konqresin açılış mərasimində Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Fuad Babayev, Azərbaycan Respublikası Gənclər Fondunun Gənclər Təşkilatları ilə iş şöbəsinin müdiri Seymur Hüseynov, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Azər Əliyev çıxış ediblər.

Açılış mərasimindən sonra Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Fuad Babayevin moderatorluğu ilə "Gənclər təşkilatlarının idarəedilməsində keyfiyyət meyyarları" mövzusunda müzakirə sessiyası baş tutub.

Sonra "Dövlət gənclər siyasəti: Gənclər təşkilatları üçün yeni çağırışlar" mövzusunda panel müzakirəsi ilə davam edib. Paneldə spiker qismində Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Fuad Babayev və Azərbaycan Respublikası Gənclər Fondunun Gənclər Təşkilatları ilə iş şöbəsinin müdiri Seymur Hüseynov iştirak edib.



# Heydər Əliyevin anım günü ərəfəsində məktəblilər Ulu Öndərin adını daşıyan mərkəzi ziyarət ediblər

Müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Anım günü ərəfəsində məktəb şagirdlərinin Heydər Əliyev Mərkəzinə ekskursiyası keçirilib.



Heydər Əliyev Mərkəzinə gələn şagirdlər Dahi Liderimizin fəaliyyətini əks etdirən kitab və jurnalların sərgisi ilə tanış olublar. Şagirdlərə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən eksponatlar əsasında geniş, dolğun məlumat verilib.

Ümummilli Lider Heydər Əliyevin müasir Azərbaycan dövlətinin yaranması və inkişafında həyata keçirdiyi əvəzsiz xidmətlərdən, ölkəmizdə hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsindəki rolundan bəhs edilib.

# Narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni hamılıqla aparmalıyıq

Narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəni hamılıqla aparmalıyıq

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq müasir dünyanın ən ciddi problemlərindən biridir. Narkomaniya cəmiyyətin mənəvi və intellektual potensialının aşınmasına, genefondun tənəzzülünə və digər mənfi hallara gətirib çıxarır. Narkotiklərin qanunsuz dövriyyəsi cinayətkarlığın artmasına səbəb olmaqla yanaşı, həm də terrorizmin maliyyə mənbəyi kimi beynəlxalq təhlükəsizliyə ən ciddi təhdidlərdən biridir.

Müstəqilliyimizin ilk illərindən Xalqımızın Ümummilli Lideri Heydər Əliyev cəmiyyətimizin sağlam inkişafının vacibliyini vurğulayaraq qeyd etmişdir ki, "Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin fiziki və əqli sağlamlığı uğrunda aparılan mübarizədir". Bununla da respublikamızda sosial-iqtisadi sabitliyin təmin edilməsi, insanların sağlamlığının, sosial rifahının və mənəvi-əxlaqi dəyərlərinin qorunması məqsədi ilə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə dövlət səviyyəsinə qaldırılmış və bu problemlə mübarizəni vahid strategiya çərçivəsində həyata keçirmək Azərbaycan dövləti üçün prioritet vəzifə kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikası beynəlxalq birliyin bütün səylərini dəstəkləyərək Birləşmiş Millətlər Təşkilatının müvafiq konvensiyalarına qoşulmuş, ölkəmizdə beynəlxalq standartlara uyğun normativ milli hüquqi baza yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin narkomanlığa və narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə dövlət və hüquq-mühafizə orqanlarından konkret nəticələr tələb etməsi bu qlobal problemin ölkəmizdə yayılması təhlükəsinə qarşı Azərbaycanın qətiyyətli mövqeyini əks etdirir.

Təsadüfi deyildir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə üzrə" Dövlət Proqramı təsdiq olunmaqla icra olunmaqdadır.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın məqsədi respublikada narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, antinarkotik təbliğatı, ictimai maarifləndirmə işinin əhatəsinin genişləndirilməsi, müasir informasiya texnologiyalarının imkanlarından istifadə olunmaqla, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması, narkomanlığa düçar olmuş şəxslərin müalicəsi və reabilitasiyası istiqamətində müasir texnologiyaların və yeni üsulların tətbiqi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, beynəlxalq təcrübədən istifadə etməklə ixtisaslaşmış seminarların keçirilməsi və digər genişmiqyaslı məsələlərdən ibarətdir.

Son dövrlər Tovuz rayon polis şöbəsinin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə işi gücləndirilmiş, bir sıra qabaqlayıcı profilaktik və əməliyyat-axtarış tədbirləri həyata keçirilmiş və cinayətkarlardan külli miqdarda narkotik vasitələr götürülmüşdür.

Belə ki, 2020-ci il ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı keçirilmiş əməliyyat tədbirləri nəticəsində 22 cinayət faktı aşkar olunmuşdur. Həmin faktlar üzrə dövriyyədən ümumilikdə 893,4 qram qurudulmuş marixuana, 6371 qram qurudulmamış marixuana, 60,289 qram tiryək, 6,753 qram heroin və 1,447 qram metamfetamin çıxarılmışdır.

2021-ci hesabat ilində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı keçirilmiş əməliyyat tədbirləri nəticəsində 50 cinayət faktı aşkar olunmuşdur. Həmin faktlar üzrə ümumilikdə 24310,348 qram narkotik vasitə dövriyyədən çıxarılmışdır. Onlardan 5 kq.119 qram qurudulmuş marixuana, 19 kq100 qram qurudulmamış marixuana, 80,8 qram tiryək, 15,4 qram psixotrop maddə olmuşdur.

2022-ci ilin ötən dövrü ərzində narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı keçirilmiş əməliyyat tədbirləri nəticəsində 42 cinayət faktı aşkar olunmuşdur. Həmin faktlar üzrə ümumilikdə 8121,586qram narkotik vasitə dövriyyədən çıxarılmışdır. Onlardan 6kq 251,13 qram qurudulmuş marixuana, 24 kq362 qram qurudulmamış marixuana, 40,927 qram tiryək, 1305,484 qram heroin və 531,535 qram psixotrop maddə olmuşdur.

Göründüyü kimi əvvəlki illərlə müqaisədə son illər bu sahədə daha qətiyyətli tədbirlər görülmüş və bu tədbirlər hal-hazırda da davam etdirilməkdədir.

Narkomaniya bəşəriyyətin mübarizə apardığı arzuolunmaz xəstəlik, sağlamlığın və mənəviyyatın qənimidir. Bu problemlərlə mübarizədə yeganə yol sağlam həyat tərzinin təbliği və maarifləmənin gücləndirilməsidir. Ona görə də hər kəs insanlığa bəla olan bu problemlə mübarizədə fəal və qətiyyətli olmalı, gələcək nəsillərimiz qarşısında vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirməlidir.

***Məzahir Quliyev,***
***Tovuz rayon prokurorunun köməkçisi, ədliyyə müşaviri.***



# Azərtac: Qızıl Aypara Cəmiyyətinin könüllülərinə qan donorluğu və talassemiya haqqında məlumat verilib



Tovuz Gənclər Evi"də "Azərbaycan Qızıl Aypara Cəmiyyəti"nin (AzQAC) Tovuz rayon bölməsinin və Azərbaycan Qan Donorluğunun İnkişafı Mərkəzinin (AQDİM) birgə təşkilatçılığı ilə "Sağlam olaq – donor olaq" adlı təbliğat-təşviqat xarakterli tədbir təşkil olunub.

AZƏRTAC-a AQDİM-in mətbuat xidmətindən bildirilib ki, tədbirdə qan verməyin insan orqanizmində hüceyrələrin təzələnməsinə, qandakı yağın miqdarının azalmasına, başağrısı, stres, yüksək qan təzyiqi, yorğunluq kimi narahatlıqların azalmasına yaxşı təsir etdiyi qeyd edilib. Qan verən insanda ürək xəstəliklərinin başvermə riski 90 faiz aşağı düşür və qanın təhlükəsiz olduğuna əmin olmaq üçün donor hər dəfə qan analizi verir.

Eyni zamanda, AzQAC-ın Tovuz Rayon bölməsinin könüllülərinə qanaxmalar zamanı qanın dayandırılması üsulları, sınıq-çıxıq və zədələnmələr zamanı zədələnən ətrafın fiksasiya edilməsi üsulları, döş qəfəsinin ağrıları, zədələnmələri və yaralanmaları, o cümlədən tənəffüs yoluna yad cismin düşməsi zamanı göstəriləcək ilk yardım qaydaları nümayiş olunub.

Tədbirin sonunda AzQAC-ın Tovuz rayon bölməsi və AQDİM arasında birgə tədbirlər planı haqqında razılıq əldə olunub.

# Gözün aydın, biz qayıtdıq, Qarabağ...

Biz düşmənin dərisini soymadıq,
Məhv elədik, parçaladıq doymadıq.
Gec də olsa tapdaq altda qoymadıq,
Gözün aydın, biz qayıtdıq, Qarabağ!

Qurban olum başındakı tacına,
Neçə ildir dən düşübdür saçına.
Yenə gəldim Kəlbəcərə, Laçına,
Gözün aydın, biz qayıtdıq, Qarabağ!

Qurban olum bu xalqa, bu millətə,
Ömür boyu borcluyam bu dövlətə.
Son qoyaraq otuz illik həsrətə
Gözün aydın, biz qayıtdıq, Qarabağ!

Biz olmarıq nə uzağın, nə yadın,
Canın verər hər bir oğul və qadın.
Qisasını aldıq İlqar, Poladın,
Gözün aydın, biz qayıtdıq, Qarabağ!

***Ramil Əsgərov***

BAŞ REDAKTOR
Çingiz Qəribli

**Ünvanımız:**
*Tovuz şəhəri, Şəhriyar küçəsi, 3,*
*Telefon: (022)315-35-23*
*tovuz.1929@mail.ru*

*Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlara və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Son dakika" mətbəəsində çap olunmuşdur.*
*Sifariş.567.*
*Tiraj: 1500.*